UOT 338.43

*Yunis Musa oğlu SADIQOV*
*i.f.d., dosent, AMEA-nın İqtisadiyyat İnstitutu*

# ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi:** Məqalədə Azərbaycanda üzümçülük və şərabçılığın mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmiş, inkişaf perspektivinə dair məlumat və təkliflər təqdim olunmuşdur. Eyni zamanda üzümçülük və şərabçılığın inkişaf istiqamətləri göstərilməklə, rentabelliyinə görə kənd təsərrüfatı məhsulları içərisində ən çox iqtisadi effekti olan fəaliyyət növü olduğu əsaslandırılmışdır.

**Tədqiqatın metodologiyası:** Müşahidə, müqayisə, statistik və analitik təhlil.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Məqalədə ölkədə üzümçülük və şərabçılıq sahələrinin yenidən əvvəlki səviyyəyə qaldırılmasının zəruriliyi göstərilmiş, gəlirliyinə görə neft sektoruna alternativ bir sahə kimi əsaslandırılmışdır.

**Tədqiqatın nəticələri**: Üzümçülüyün və şərabçılığın ölkə iqtisadiyyatı, xüsusilə də kənd təsərrüfatı üçün əhəmiyyəti göstərilmiş və konkret təkliflər verilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Azərbaycanın kənd təsərrüfatında rəqabət qabiliyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması istiqamətində üzümçülük və paralel olaraq şərabçılığın inkişafı prioritet sahə kimi göstərilmiş, kənd təsərrüfatı məhsulları içərisində ən çox gəlir gətirə biləcək bir sahə kimi əsaslandırılmışdır. Sahənin inkişafı ilə əlaqədar verilmiş təkliflər orijinallığı ilə fərqlənir.

***Açar sözlər: üzümçülük, üzüm sortları, şərabçılıq, bazarlar, şərab ixracı, aqrar sektor, alkoqollu içkilər, alkoqolsuz içkilər.***

## *Giriş*

Azərbaycan iqtisadiyyatında rəqabət qabiliyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması ölkənin əsas iqtisadi prioritetlərindəndir. Görülmüş tədbirlər nəticəsində ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə diqqət artmaqdadır. Bu baxımdan üzümçülük və şərabçılıq daim diqqət mərkəzində saxlanılır. Kənd təsərrüfatı məhsulları içərisində üzümçülük və paralel olaraq şərabçılıq ən çox gəlir gətirə biləcək bir sahədir. Ölkənin əlverişli təbii-coğrafi şəraiti qədimlərdən bu ərazidə üzümçülüyün geniş inkişafına imkan yaratmış və bəzi bölgələrdə bu təsərrüfat sahəsi əhalinin iqtisadi həyatında mühüm rol oynamışdır.

Üzümün sənaye təsərrüfatı baxımından olduqca qiymətli xüsusiyyətlərini öyrənmək, bu sahədə nəzəri və eksperimental tədqiqatların həyata keçirilməsi zamanı iqtisadi cəhətdən yüksək səmərəli nəticələr əldə etmək üçün üzümü hərtərəfli tanımaq, onun bioloji, texnoloji, morfoloji, anotomik və digər xüsusiyyətlərini dərindən öyrənmək lazımdır.

Hələ 1985-ci ildə Sovetlər dönəmində Azərbaycanda 267,8 min ha. üzüm bağları mövcud idi. Hər il 2 milyon ton civarında şərab üzümü istehsal olunub emal müəssisələrinə təhvil verilirdi. Azərbaycan üzümşülük və şərabçılığın inkişafının pik nöqtəsini yaşayırdı.

1980-ci illərin ortalarında SSRİ rəhbərliyinin bədnam “Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri” adl səriştəsiz qərarının tərkib hissəsi kimi ölkəmizdə üzüm bağları kütləvi surətdə məhv edilməyə başladı və minlərlə hektar üzümçülük üçün çox əlverişli torpaq sahələri taxıl və digər kənd təsərrüfatı məhsullarının əkini altına verilməyə başladı. Paralel olaraq xammalsız qalan şərab zavodlarının da dağıdılmasına başlandı.

Onillərlə qazanılmış nailiyyətlər cəmi 2-3 ildə məhv edildi. Yalnız texniki sortlardan ibarət üzümlüklər deyil, keyfiyyətli süfrə üzüm sortlarından ibarət bağlar da məhv edildi.

Eyni zamanda təxminən 43 min hektar üzüm bağları Ermənistan tərəfindən işğal olunmuş torpaqlarda məhv oldu.




Mənbə: Dövlət Statistika Komitəsi

Nəticədə Azərbaycanda üzüm istehsalı 13 dəfədən çox, üzüm bağları isə təxminən 16 dəfə azalmışdır. Onu da nəzərə almalıyıq ki, bu günə mövcud olan üzüm bağlarının yarıdan çoxu süfrə sortudur və birbaşa istehlak bazarlarına verilir. Bu isə o deməkdir ki, hazırda üzüm emalı müəssisələrinə verilən üzüm, 1985-ci ildə şərab emalı üçün istehsal olunan üzümün təxminən 4-5%-i miqdarındadır. Bütün bunları nəzərə alaraq təsəvvür etmək olar ki, Azərbaycanın aqrar-emal sahəsində gəlirinə görə ən önəmli yer tutan şərabçılıq sahəsi nə qədər ağır duruma düşmüşdür.




*Mənbə: Dövlət Statistika Komitəsi*

Diaqramdan da göründüyü kimi, ölkədə üzüm istehsalı 1985-ci ilə nisbətn dəfələrlə azalmışdır. Məhsuldarlıq isə əksinə, 40 sentner artmışdır. Məhsuldarlığın artımı bir daha göstərir ki, son illər əkilmiş üzüm bağlarında daha məhsuldar olan yeni sortlara üstünlük verilmişdir.

**Üzümçülüyün inkişaf perspektivləri**

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1995-96-cı illərdən sonra üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradılmış və bu istiqamətdə müvafiq dövlət tədbirlərinin həyata keçirilməsinə başlanılmışdır. 2002-ci ildə “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-

2008-ci illər)” və “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, Azərbaycan Respublikası Prezidenti tərəfindən 25 avqust 2008-ci ildə təsdiq olunan “2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” ölkəmizdə ən gəlirli sahələrdən olan üzümçülüyün və şərabçılığın yenidən inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdır. [1] Həmçinin “2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nda bu sahənin sənaye miqyasında inkişafının təmin edilməsi, dünya standartlarına uyğun şərab məhsullarının istehsalının strateji istiqamətləri müəyyənləşdirilmişdir. [1]

“Üzümçülük və şərabçılıq haqqında” qəbul olunan qanun sahənin inkişafı üçün hüquqi baza yaratmaqla bərabər, emal sahəsinin inkişafını, şərab məhsullarının keyfiyyətinə qoyulan tələbləri, nəzarət tədbirlərini və dövlət standartı normalarını müəyyənləşdirmişdir. Dövlət proqramlarında isə emal sahəsi prioritet kimi elan olunmuş, ölkə əhalisinin qida məhsulları ilə təhlükəsiz və dayanıqlı təminatı ilə bağlı vəzifələr qarşıya qoyulmuşdur.

Ölkə Prezidentinin sərəncamı ilə 2016-cı ildə qəbul edilmiş “Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-i ümumilikdə 1235 milyon manat artıracağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi üçün isə dövlət-özəl resursları hesabına 1170 milyon manat investisiya qoyuluşu tələb ediləcəyi proqnozlaşdırılır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda nəzərdə tutulan tədbirlər üzrə konkret hədəf indikatorları müəyyən edilmişdir. [2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin hələ 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, dövlət başçısı ölkədə üzümçülüyün inkişafı ilə bağlı məsələyə geniş yer ayırmışdır. Cənab İlham Əliyev demişdir: “Azərbaycanda üzümçülüyün çox böyük ənənələri vardır. Biz bu ənənələri bərpa edirik və eyni zamanda, bu gün dünyanın ən qabaqcıl texnologiyalarını cəlb edirik. Təsadüfi deyil ki, ixracımız artır. İndi Azərbaycan şərab evlərini açmağa başlayıb. Artıq bir neçə olkədə şərab evləri fəaliyyətə başlayır. Bizim şərabımıza böyük maraq var”.

Həqiqətən də ölkənin ənənəvi üzümçülük və şərabçılıq sahəsində gələcəkdə istifadə edə biləcəyimiz böyük potensial mövcuddur. Üzümçülük aqrar sektorda gəlirinə görə əsas sahələrdən biri olmaqla mühüm əhəmiyyətə malikdir. Tarixən bu ərazidə xalq seleksiyası yolu ilə yaradılaraq, bugünkü nəslə ötürülən müxtəlif genetik əlamətləri ilə səciyyələnən 300-dən çox yerli, 200-ə qədər ayrı-ayrı dövlətlərdən gətirilən üzüm sortları artıq bizim milli sərvətlərimizə çevrilmişdir. Ölkənin meşələrində, dağ ətəklərində yayılan yabanı üzümün mövcudluğu da sübut edir ki, bizim ərazilər dünyada üzümün yaranma mərkəzlərindən biri olmuşdur. Nəticədə Azərbaycanda tarixən üzümçülük geniş yayılan Gəncə-Qazax, Şirvan, Qarabağ-Mil, Qarabağın dağlıq hissəsi, Muğan-Salyan, Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran və Naxçıvan təbii-iqlim bölgələrində özünəməxsus üzüm sortlarının zəngin genofondu yaranmışdır.

T.M.Pənahov, V.S.Səlimov, Ə.M.Zarinin “Azərbaycanda üzümçülük” kitabında göstərilmişdir ki, “Respublikamızda üzümçülüyün intensiv inkişafını təmin etmək üçün iki istiqamətə daha cox fikir verilməlidir. Bunlardan birincisi – fermer-kəndli üzümçülük təsərrüfatlarının və fərdi üzüm bağlarının sahələrinin artırılması, ikincisi isə ölkədaxili və dünya bazarının müasir standartlarına cavab verən, bazar rəqabətinə davam gətirən keyfiyyətli və nisbətən ucuz başa gələn təzə üzüm və onun emal məhsulları ilə fasiləsiz təmin olunmasıdır. Bu təqdirdə xəstəlik və zərərvericilərdən mühafizəsi üçün minimal xərc tələb edən, uzun müddət sabit məhsul verərək keyfiyyətini saxlayan, müasir texnoloji tələbatlara cavab verən süfrə, şərab və kişmiş istiqamətli üzüm sortlarına tələbat ildən-ilə artır”. [3]

Azərbaycan Respublikasının üzümçülük bölgələrində yeni üzüm bağlarının salınması, paralel mövcud üzümlüklərin genişləndirilməsi, daha çox maddi gəlirin və keyfiyyətli məhsulun əldə olunmasında üzüm sortlarının düzgün seçilməsi, ayrı-ayrı sortlardan ibarət plantasiyaların salın-

ması yüksək iqtisadi nailiyyətlərin əldə olunmasının əsas bazasını təşkil edir. Əkildikdən təxminən 3-4 il sonra məhsul verən üzüm çoxillik bitki olmaqla yanaşı, həm də istehsalçılarına böyük gəlir gətirən olduqca perspektivli kənd təsərrüfatı bitkisidir. Ona görə də iqtisadi baxımdan üzümçülük çox gəlirli sahə hesab edilir. Sahə vahidindən alınan gəlirə görə üzümçülük yalnız örtülü tərəvəzçilikdən geri qalır. Üzüm istehsalı ilə, xüsusən şərabçılıqla məşğul olan ölkələrin təcrübəsi göstərir ki, sözügedən sahə həm də dövlət büdcəsinin formalaşmasında önəmli rol oynayır. Üzümçülüyün genişləndirilməsi üçün kişmişi, süfrə, universal və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, ərazinin torpaq və iqlim şəraitinə uyğun müasir tipli yeni üzüm plantasiyalarının salınması, tingçilik təsərrüfatlarının yaradılması hazırda aktual problemlərdəndir. Bu istiqamətdə dövlət proqramlarına uyğun mühüm tədbirlər həyata keçirilir, Gəncə-Qazax, Şamaxı, Naxçıvan, Abşeron və başqa bölgələrdə müasir tipli üzüm plantasiyaları salınır.

Mütəxəssislər hesab edir ki, üzümçülük və şərabçılığın daha səmərəli inkişafını təmin etmək üçün dövlət tərəfindən bir sıra tədbirlərin görülməsinə zərurət var. Hazır məhsulun dünya bazarına çıxarılması vacib şərtdir, bunun üçün lazımi şərait də var. Eyni zamanda, ixrac proseslərinin daha da sadələşdirilməsi və stimullaşdırılmasına ehtiyac duyulur. Azərbaycan şərabının və konyakının daxili və xarici bazarda öz yerini tutması üçün mütləq yüksək keyfiyyətə diqqət yetirilməlidir. Məhsulun keyfiyyətinə nəzarət etməli olan qurumlar bazara çıxarılan malların istehsalına xüsusi diqqət göstərməli və yalnız keyfiyyətli məhsula şərait yaradılmalıdır. Sirr deyil ki, keyfiyyətsiz məhsul ucuz başa gəlir və bazara da tez girir. Bəzən alıcılar da məhsulun ucuzluğuna aldanırlar. Ancaq artıq standartlar və tələbat dəyişib, dünya bazarı yüksək keyfiyyətli məhsul tələb edir. Azərbaycan şərabçıları da dünya standartlarına cavab verən məhsul təqdim etməlidirlər.

Qeyd edək ki, vaxtilə, keçən əsrin 80-ci illərinin ortalarında ölkədə təxminən iki milyon tona yaxın üzüm istehsal olunurdu ki, bu məhsulun mütləq əksəriyyəti şərab zavodlarına təhvil verilirdi. Zavodlarda təxminən 130-150 mln.dkl. üzüm şərabı istehsal olunurdu və bu şərabın demək olar ki, hamısı Rusiya bazarlarında satılırdı. Azərbaycanın şərab məhsulları Rusiya bazarında əhəmiyyətli yer tuturdu.

**Şərabçılığın inkişaf perspektivləri**

Şərabçılıq aqrar-sənaye kompleksinin ən rentabelli və ən qədim sahələrindən biridir. Şərabçılıq tarixən ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə vermiş və aparıcı sahələrdən biri olmuşdur. Azərbaycan şərabları gözəl, təkrarolunmaz ətrinə və əla keyfiyyətinə görə şöhrət qazanmışdır. Statistik məlumatlar göstərir ki, keçən əsrin 80-ci illərində respublikada 210 şərab zavodu və şərabçılıq məntəqələri sistemində 151 mindən artıq fəhlə və mütəxəssis işləyir, 56 adda şərab, 10 adda konyak, 4 adda şampan şərabı və digər məhsullar istehsal edilirdi.

İqtisadi əhəmiyyəti ilə yanaşı, şərab və şərabçılıq məhsullarının müalicəvi faydaları da məlumdur. Üzüm şirəsinin turşuluğu mədə şirəsinin turşuluğuna yaxın olduğundan, üzüm şərabları şərabla müalicədə – enoterapiyada perspektivlidir.

Şərab və şərabçılıq məhsullarının sadalanan iqtisadi və sosial əhəmiyyəti nəzərə alınaraq, ölkədə şərabçılığın yeni inkişaf mərhələsinə keçirilməsi qarşıda duran əsas hədəflərdən biridir. Bu baxımdan, sözügedən sahədə həyata keçirilən dəstək tədbirləri ilə yanaşı, şərab istehsalçılarının da müəyyən məsuliyyət daşıması zəruridir. İstehsal olunan məhsullar dünya bazarında rəqabətqabiliyyətli və qiymətinə görə münasib olmalıdır.

Şərab və şərabçılıq məhsullarının keyfiyyəti üzüm sortlarının texnoloji xüsusiyyətlərindən və keyfiyyətindən birbaşa asılıdır. Odur ki, üzümçülük təsərrüfatları yaradılarkən texniki üzüm sortları düzgün seçilməlidir. Bölgənin torpaq-iqlim şəraitini nəzərə almaqla, sortlar bölgələr və mikrobölgələr üzrə düzgün yerləşdirilməli və sortlara diferensial aqrotexniki qulluq tətbiq edilməlidir. Bir daha qeyd etməliyik ki, dünyada keyfiyyətli texniki üzüm sortlarının əkilib-becərildiyi ərazilərdən biri də Azərbaycandır. Azərbaycan "Bayanşirə", "Mədrəsə", "Şirvanşahı", "Xindoqnı", "Həməşərə", "Mələyi", "Xərci", "Qara aldərə", "Dəvəgözü" və s. kimi yüksək keyfiyyətli yerli (aborigen) texniki üzüm sortları ilə məşhurdur.

Sovet dönəmində ölkənin şərab zavodları 60 markadan çox şərab, o cümlədən 17 növ turş şərab (“Bayan”, “Alşərab”, “Sadıllı”, “Mədrəsə”, “Novruzlu”, “Şamxor”, “Qarakənd”və s.), 20 növ portveyn tipli tünd desert şərabı (“Ağstafa”, “Alabaşlı”, “Ağdam”, “Qızıl şərbət”, “Qara yeri”, “Qara Çanaq”, “Mil”, “Göytəpə”, “Qarabağ”, “Şahbuz”, “Azərbaycan”, “Şamaxı”, “Kürdəmir”və s.) və konyaklar (“Göy-göl”-3,4,5 ulduzlu, “Bakı”, “Yubileynı”) istehsal edirdilər.

Doğrudur, həmin vaxtlar planlı iqtisadiyyat sistemi hökm sürürdü, məhsulun realizasiya olunmasında problemlər olmurdu. Daha doğrusu, başqa istehsalçı rəqiblər olmurdu, kimsə istehsalçını bazarda sıxışdıra bilmirdi və s. Ancaq bu gün Azərbaycanda şərabçılığın belə ağır duruma düşməsi üçün bazar münasibətlərinin dəyişilməsi əsas ola bilməz.

O zaman belə bir sual yaranır : bu sahədə müşahidə olunan acınacaqlı vəziyyətin səbəbi nədir?

Bu məqalənin müəllifi 2018-ci ildə yazdığı “Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri” adlı monoqrafiyasında göstərmişdir: “Torpaq, iqlim dəyişilməyib, ənənəvi üzümçülüklə məşğul olan kənd insanları dəyişilməyib, keyfiyyətli şərab məhsulları hazırlayan mütəxəssislərimiz var, nəhayət yüksək ixrac potensialına malik qonşu Rusiya bazarı öz yerindədir və orada şəraba böyük tələbat da var. Onu da qeyd etməliyik ki, digər ölkələrin şərab istehsalçılarına nisbətən bazara yaxınlıq və dəmiryol qovşağının olması bizim üstünlüyümüzdür ki, bu da daşınma xərclərinə, son nəticədə isə şərab məhsullarının satış qiymətinə müsbət təsir edir”. [4]




*Mənbə: Dövlət Statistika Komitəsi*

Diaqramdan göründüyü kimi, şərab məhsullarının idxalı azalır, ixracı isə artır. Bu o deməkdir ki, son illər şərabçılığın inkişafı ilə əlaqədar görülmüş tədbirlər öz nəticəsini göstərməyə başlamışdır.

Artıq köhnə, işlənmiş sovet avadanlıqlarından istifadə edilməklə bugünkü bazar rəqabətinə dözümlü şərablar (xüsusilə də natural şərablar) hazırlamaq mümkün deyildir. Çünki bu avadanlıq və qablar metal və enerji tutumlu olmaqla, daha çox oksidləşdirmə ehtimallıdır. Odur ki, son 5 ildə ölkənin əsas şərab istehsalçıları tərəfindən müəsissələr müasir avadanlıqlar əsasında yenidən qurulur. Müəssisələrin yenidən qurulmasında dünyanın bu sahədə fəaliyyət göstərən ən nəhəng firmaları ilə yaradılmış işgüzar əlaqələr hesabına alınmış yeni avadanlıqlar və texnoloji qablardan istifadə olunur. Üzümlüklərin salınması, şərab zavodlarının layihələndirilməsi, qurulması və işlədilməsində məşhur şirkətlər iştirak edirlər. Bütün bunlar Azərbaycan şərab istehsalçılarına öz məhsullarını yalnız daxildə deyil, xarici bazarda da uğurla realizə etməyə imkan verir. İndi Azərbaycanın şərab və konyakları Rusiya, Ukrayna, Belarus, Polşa, Almaniya, Yaponiya, Çin, Hindistan kimi ölkələrə ixrac olunur. Ölkənin şərab və tünd içkiləri son illər keçirilən beynəlxalq səviyyəli müsabiqə və sərgilərdə ən yüksək mükafatlarla təltif olunur.

Qeyd olunanlardan aydın olduğu kimi, belə inkişaf səviyyəsi ölkəmizin potensialını tam əks etdirmir. Odur ki, sahənin inkişafına əngəl törədən səbəblər araşdırılmalı və inkişaf yolları müəyyənləşdirilməlidir. Araşdırmalar göstərir ki, ölkəmizdə sahənin inkişafına mane olan bir sıra problemlər mövcuddur.

***Nəticə***

Üzümçülüyün əkin sahələrini artırmaqla bu sahənin inkişafını 1985-ci il səviyyəsinə, yəni 220 min hektara çatdırmaq olar. Bundan ötrü sadəcə olaraq sahibkarlara sözdə deyil, faktiki olaraq yaşıl işıq yandırmaq lazımdır. Ölkədə salınacaq üzüm plantasiyalarının maliyyələşməsinin öhdəsindən yerli sahibkarlar və yerli investorlar gələ bilərlər. Belə ki, üzüm bitkisi üçün məhsul verimınə çatanadək olan müddət ərzində təxminən hər hektara 10-12 min manat (tingin qiymətilə birlikdə) vəsait xərclənməlidir.

Fikrimizcə, üzüm əkini sahəsinin genişləndirilməsi iqtisadi səmərəsi çox az olan taxıl əkini sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə üzüm plantasiyaları məhv edilib taxıl altına verilmişdir.

Respublikamızda mövcud olan zəngin üzüm genofondu yeni salınacaq üzüm plantasiyalarının əkin materialları ilə təmin olunmasına etibarlı zəmin yaradır. Əsas üzümçülük bölgələrinə uyğun əkin materialı üçün süfrə və texniki sortların düzgün seçilməsi müasir tipli üzüm bağlarının salınmasında mühüm şərtdir. Hazırda dünyada cəlbedici əmtəə görünüşlü və keyfiyyətli, uzun müddət qorunub saxlanıla bilən süfrə üzümünə, qurudulmuş kişmiş və mövüc, həmçinin abqora, sirkə, müxtəlif şirələrin, mürəbbələrin, spirtsiz içkilərin yüksək keyfiyyətlə sənaye miqyasında istehsalına böyük tələbat vardır. Ayrı-ayrı bölgələrdə müasit tipli innovativ becərilmə sisteminə malik olan yeni üzümlüklərin salınmasında məqsədyönlü şəkildə müxtəlif vaxtlarda yetişən, ayrı-ayrı genetik əlamətlərə malik, dünya standartlarına uyğun ayrı-ayrı məhsulların istehsalı üçün tam yararlı olan süfrə və texniki sortlardan istifadə olunması respublika əhalisinin belə məhsullarla dolğun şəkildə təmin olunmasına şərait yaradar, üzüm məhsulları ixracatının artırılmasına, nəticədə yüksək iqtisadi gəlirin əldə olunmasına imkan verər.

Dünya miqyasında istehsal olunan üzümün yalnız 90%-ə qədəri sənaye müəssisələrində emal üçün nəzərdə tutulmuşdur və bu sənaye emalının nəticəsi olaraq 60 addan çox qida və dad məhsulları hazırlanmışdır. Üzümün emalı nəticəsində alınan üzüm məhsullarına, şərabçılıq məhsullarını, üzüm şirələrini, üzüm konsentratlarını, üzüm konservlərini, üzümün tullantısız emalını həyata keçirmək məqsədi ilə əldə olunan ikinci dərəcəli məhsulları aid etmək olar, bundan əlavə, üzümdən kişmiş, marinadlar, mürəbbələr, şərq şirniyyatları, digər spirtsiz (alkoqolsuz) içkilər alınır ki, bu məhsullar insanların qida rasionunda öz əhəmiyyəti ilə fərqlənirlər.Təbii üzüm şirəsi olduqca yüksək qidalılıq dəyərinə və keyfiyyət zənginliyinə malik qida məhsuludur, hansi ki, tərkibində qlükoza və fruktoza kimi orqanizmdə asan mənimsənilən şəkərlər və xarakterik xoşagələn dadın formalaşmasında iştirak edən üzvi turşuların mövcud olması ilə fərqlənir.

Üzümçülük müəssisələri alkoqolsuz məhsulların istehsalını artırmalıdırlar. Bura üzüm şirəsi, bəhməz, kişmiş, mürəbbələr kimi digər məhsullar daxildir. Bu təklifə uyğun bir misal göstərək. Türkiyədə adambaşına ildə 33,6 kiloqram üzüm istehlak edilir və bunun çoxu alkoqolsuz məhsullardır. Azərbaycanda isə bu rəqəm, idxalı nəzərə almasaq, 14 kq-dır. Əgər Azərbaycanda da üzüm Türkiyə səviyyəsində istifadə edilsə, daxili bazarın həcmi 300 min tonu keçər və üzüm istehsalında sovet illərinin səviyyəsinə müəyyən qədər yaxınlaşma mümkün olar.

Eyni zamanda Türkiyənin üzümçülük sektorunda üzümün il boyu təzə meyvə kimi istehlakı ağırlıq təşkil edir. Azərbaycanda da iri üzüm anbarları tikilə bilər və ənənəvi satış bazarı olan MDB ölkələrini il boyu təzə üzümlə təmin etmək olar. Halbuki, Azərbaycan bazarının özündə mövsümdən kənar dövrlərdə satılan üzüm əsasən Türkiyə və İrandan gətirilmiş olur. Təkcə 2016-cı ildə 20,6 min ton üzüm idxal olunmuşdur.

Üzümdən alınan spirt alkoqollu içkilər istehsalı üçün xammaldır. Fikrimizcə, üzümçülükdə son məhsul olan şərabın ixracı ölkəyə daha çox valyuta gətirərdi, nəinki üzüm şərabından alınan spirt.

Bunun üçün ixrac potensialı böyük olan Rusiya bazarında Azərbaycan şərabının mövqeyini bərpa etmək üçün şərab istehsalı ilə məşğul olan sahibkarlar tərəfindən məqsədyönlü və gərgin işlər görülməlidir.

Hesablamalar göstərir ki, yuxarıda qeyd edilən prinsiplərə əməl olunarsa və şərabçılığın əvvəlki şöhrəti özünə qaytarılarsa, şərab istehsalı artan dinamika ilə inkişaf edərək 4-6 ildən sonra hər il ölkəyə təxminən 2,5-3 milyard ABŞ dolları məbləğində valyuta gətirə bilər. Ona görə də alkoqollu içkilər, xüsusilə də şərabçılıq ölkə üçün iqtisadi effektliliyinə görə neft sektoru ilə müqayisə oluna bilər və büdcə gəlirlərinin təminatında neft sektoruna layiqli alternativ ola bilər. Bu səbəbdən də şərabçılıq ölkənin kənd təsərrüfatının inkişafında ən prioritet məsələlərdən biri olmalıdır.

## ƏDƏBİYYAT


1. www.president.az
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi”.
3. T.M.Pənahov, V.S.Səlimov, Ə.M.Zari. “Azərbaycanda üzümçülük”. Bakı, “Müəllim” nəşriyyatı – 2010.
4. Y.M.Sadıqov. “Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri”. Bakı, “Avropa” nəşriyyatı, 2018-ci il.



***Юнис Муса оглы Садыгов***

***к.э.н., доцент, Институт Экономики НАНА***


## Развитие и перспективы виноградарства и виноделия


***Резюме***

**Цель исследования:** В статье анализируется и оценивается текущая ситуация виноградарства и виноделия в Азербайджане, даются информация и предложения по перспективам развития. При этом, указав направления развития виноградарства и виноделия, было обосновано, что это вид деятельности с наибольшим экономическим эффектом среди сельхозпродукции с точки зрения рентабельности.

**Методология исследования:** Наблюдение, сравнение, статистический и аналитический анализ.

**Важность исследовательского приложения:** В статье подчеркивается необходимость поднять виноградарство и виноделие в стране на прежний уровень, обосновывая это как альтернативу нефтяному сектору с точки зрения прибыльности.

**Результаты исследований:** Была подчеркнута важность виноградарства и виноделия для экономики страны, особенно сельского хозяйства, и внесены конкретные предложения.

**Оригинальность и научная новизна исследования:** В целях повышения конкурентоспособности и эффективности сельского хозяйства в Азербайджане развитие виноградарства и виноделия параллельно было определено как приоритетное направление и обосновано как одно из самых прибыльных направлений сельскохозяйственного производства. Предложения по развитию отрасли отличаются оригинальностью.



***Ключевые слова: виноградарство, сорта винограда, виноделие, рынки, экспорт вина, сельскохозяйственный сектор, алкогольные напитки, безалкогольные напитки.***

***Yunis Musa Sadigov***
***PhD of Institute of Ekonomics, ANAS***

**Development and prospects of viticulture and winemaking**

***Summary***

**Purpose of the study:** The article analyzes and assesses the current situation of viticulture and winemaking in Azerbaijan, provides information and proposals on development prospects. At the same time, indicating the directions of development of viticulture and winemaking, it was substantiated that this is the type of activity with the greatest economic effect among agricultural products in terms of profitability.

**Research methodology:** Observation, comparison, statistical and analytical analysis.

**Value of study application:** The article shows the need to move viticulture and winemaking in the country to the previous level, justified as an alternative industry to the oil sector in terms of profitability.

**Research results:** The importance of viticulture and winemaking for the country's economy, especially agriculture, was emphasized, and specific proposals were made.

**Originality and scientific novelty of research:** Viticulture and the development of wine-making in the direction of increasing competitiveness and efficiency in agriculture is justified as an area indicated as a priority industry that can generate the most income among agricultural products. Proposals for the development of the industry are distinguished by originality.

***Key words: viticulture, grape varieties, winemaking, markets, wine export, agricultural sector, alcoholic beverages, non-alcoholic beverages.***